Leobank

# FİZİKİ ŞƏXSLƏRƏ BANK XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİNƏ DAİR STANDART ŞƏRTLƏR

Bakı şəhəri 17.10.2024-cü il

Bu Standart Şərtlər Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 14 dekabr 2010-cu il tarixdə verilmiş 73 saylı lisenziya, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "Unibank" Kommersiya Bankı ASC (bundan sonra – Bank) tərəfindən rezident fiziki şəxslərə bu Standart Şərtlərdə təklif edilən bank xidmətləri ilə bağlı onların Bankla münasibətlərini tənzimləyir.
Bu Standart Şərtlər Müştəri tərəfindən aksept (qəbul) edildikdən sonra 25 (iyirmi beş) il müddətinə Bankla Müştəri (birlikdə "Tərəflər") arasındakı münasibətləri tənzimləyir. Bank, bu Standart Şərtlərə birtərəfli qaydada əlavələr və dəyişiklik edə bilər.

## ƏSAS ANLAYIŞLAR

**Aksept** - Standart Şərtləri tam və qeyd-şərtsiz qəbul etməsi barədə Müştərinin ərizəsi;
**Ərizə-anket və imza nümunəsi** – Müştəri tərəfindən bu Standart Şərtlərin aksepti sayılan və özündə müvafiq razılıq şərtlərini ifadə edən, bu Standart Şərtlərin və Müştəri ilə bağlanan kredit xətti müqaviləsinin tərkib hissəsi sayılan yazılı və imzalı ərizə;
**Analoq imza** – imza edənlə şəxsi açar vasitəsi ilə əlaqələndirilmiş elektron şəkildə imza atma imkanı yaradan unikal məlumatlar başa düşülür. Analoq imza Bank və Müştəri arasında qarşılıqlı razılaşdırılmış bütün əməliyyatların (müqavilələrin, məktubların, hesab üzrə sərəncamların, tapşırıqların, etirazların və sair imzalanması da daxil olmaqla) imzalanması üçün Bank tərəfindən Müştəriyə mobil əlavə vasitəsilə təqdim edilmiş və onun şəxsi imzasının alternativi olan və eyni hüquqi nəticələrə gətirən analoq imzadır. Analoq imza, həmçinin müştəri identifikasiyası üçün bir vasitə və bank alətidir və Müştərinin kağız üzərində təqdim etdiyi fiziki imza ilə eyni hüquqi qüvvəyə malikdir;
**Müştəri** - bu Standart Şərtləri qəbul edən və Bankın bu Standart Şərtlərdə göstərilən xidmətlərindən istifadə etmək niyyətində olan və/və ya istifadə edən rezident fiziki şəxs;
**Bankın internet səhifəsi** – www.leobank.az
**Nağdlaşdırma** – bankomat (ATM), POS-terminal və ya qanunvericilikdə nəzərdə tutulan və Bank tərəfindən tətbiq edilən digər vasitələrlə nağd pul vəsaitinin alınması (məxarici) əməliyyatıdır;
**Nağdsız ödəniş** – nağd puldan istifadə etmədən kart vasitəsilə malların və ya xidmətlərin dəyərinin POS-terminal, ATM, mobil əlavə və ya internet vasitəsilə ödənilməsi əməliyyatıdır;
**Bank hesabı** – Müştəriyə açılmış hesaba daxil olan pul vəsaitlərinin qəbul edilməsi və hesaba salınması, hesabdan müvafiq məbləğlərin köçürülməsi və verilməsi, hesab üzrə digər əməliyyatların aparılmasına imkan verən vasitə (hərf və rəqəmlərin kombinasiyası);
**Bank əmanəti (depozit)** – müvafiq müqavilə şərtləri ilə faizlər və ya komissiya haqları ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir;
**Bank xidməti** – bu müqavilə ilə təqdim edilən aşağıdakı xidmətlər:

- Bank hesabları üzrə xidmətlər;
- Mobil bankçılıq xidməti (elektron bankçılıq);
- Bank əmanəti;

- Ödəniş kartı üzrə xidmətlər;
- Ödəniş xidmətləri.

Bu Standart Şərtlər çərçivəsində Müştəriyə aşağıdakı ödəniş xidmətləri göstərilir:

- ödəniş hesabı üzrə pul vəsaitinin nağd formada mədaxili və (və ya) məxarici əməliyyatlarının aparılması;
- kredit köçürməsi, birbaşa debitləşmə, ödəniş kartı və ya digər oxşar ödəniş alətləri ilə ödəniş əməliyyatlarının icrası;
- ödəniş alətlərinin emissiyası və (və ya) ödəniş əməliyyatının ekvayrinqi.

Ödəniş xidmətlərinin göstərilməsi üçün tutulan xidmət/komissiya haqları Bankın qüvvədə olan tarifləri ilə tənzimlənir və https://leobank.az/ saytında yerləşdirilir. Xidmət haqqı Müştəri tərəfindən birbaşa ödənilə və ya Bank tərəfindən Müştərinin hesabından akseptsiz qaydada tutula bilər.

Valyuta mübadiləsi məzənnəsi hər gün dəyişir və saytda https://leobank.az/ yerləşdirilir. Valyuta mübadiləsi məzənnəsinə dəyişiklik üzrə xəbərdarlıq müddəti tətbiq olunmur.

**Hesabın kreditləşdirilməsi (overdraft)** – Bank hesabı müqaviləsinə müvafiq surətdə, hesabda pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda bank bu cür ödənişi həyata keçirdiyi gündən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır.

**Ödəniş kartı** – nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş aləti.

**Komissiya haqqı** – Bank tərəfindən göstərilən xidmətlərə görə Müştəri tərəfindən ödənilməli olan, Bankın tariflərinə və/və ya bu Standart Şərtlərin müddəalarına əsasən müəyyən edilən haqq;

**Tariflər** – ödəniş xidmətlərinin göstərilməsi üçün müəyyən edilmiş haqq, o cümlədən kartdan köçürmə əməliyyatlarına görə müəyyən edilmiş komissiyalar, nağdlaşdırma əməliyyatlarına görə komissiyalar, həmçinin internet səhifəsində və ya mobil əlavədə Tariflər bölməsində göstərilmiş digər ödənişlər. Tariflər bu Standart Şərtlərin tərkib hissəsi hesab edilir. Bank, internet səhifəsində və ya mobil əlavədə məlumat yerləşdirməklə birtərəfli qaydada mövcud tariflərdə dəyişiklik edə bilər.

**Eyniləşdirmə məlumatları** – Müştərinin kimliyini təsdiq olunması üçün tələb olunan və özündə ad, soyad, ata adı, doğum tarixi, qeydiyyat ünvanı və sair eyniləşdirilə bilən informasiya toplusu;

**Bank günü** – Bankın filiallarının işlədiyi dövr;

**Əməliyyat günü** – elektron əməliyyatların aparıldığı təqvim günü (00:00:01-dən 23:59:59-dək);

**Video eyniləşdirmə -** Bankla Müştəri arasında zəruri sənədlərin imzalanması, hesabların açılması, əmanətlər və digər qarşılıqlı razılaşdırılmış əməliyyatlar üçün mobil tətbiq vasitəsilə Müştərinin şəxsiyyətini təsdiq etmək üçün video texnologiyasından istifadə proseduru. Video eyniləşdirmə Müştəri ilə Bankın əməkdaşı arasında video rabitə vasitəsilə baş verir və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq tənzimlənir. Bank, Müştərini eyniləşdirmək üçün əlavə sənədlər tələb edə və alternativ eyniləşdirmə üsulları tətbiq edə bilər;

**PIN-kod** – şəxsi eyniləşdirmə nömrəsi (bundan sonra PİN-kod) - emitent tərəfindən kart sahibinə və ya onun tərəfindən vəkil edilmiş şəxsə təqdim edilən və kartla əməliyyatların həyata keçirilməsi zamanı kart istifadəçisinin tanınmasında istifadə olunan gizli şifrə;

**Elektron bankçılıq** – məsafədən, internet vasitəsilə bağlantıdan istifadə etməklə mobil cihazlar və ya internet səhifəsi üzərindən onlayn (7/24 iş rejimi) rejimdə bank xidmətlərinin istifadəsi;

**"Leobank" mobil əlavəsi ("mobil əlavə")** – "Leobank" məhsulu adı altında Bank tərəfindən müştərilərə təqdim edilən, internet bağlantı vasitəsilə istifadə edilə bilən, özündə bank xidmətləri və məhsullarını birləşdirən, xüsusi proqram təminatında yaradılmış elektron mobil əlavə;

**Mobil cihaz** – Müştəriyə məxsus Mobil bankçılıq yüklənmiş mobil telefon, smartfon, planşet və sair bu kimi elektron cihaz;

**Məsafədən xidmət (elektron xidmət)** – Mobil bankçılıq vasitəsilə nəzərdə tutulmuş əməliyyatların aparılması və sənədlərin təsdiqlənməsi təşkil edir. Müştərinin hesablarındakı əməliyyatlara, hesab üzrə sərəncam verilməsinə İnternet (mobil) vasitəsilə ötürdüyü müəyyən bir əməliyyatı yerinə yetirmək üçün dəstək xidməti.

Virtual kart- nağd pul vəsaitinin əldə edilməsi imkanı olmayan, internet və mobil bankçılıq üzərindən nağdsız ödənişlərin aparılması üçün istifadə edilə bilən ödəniş aləti.

## 1. ÖDƏNİŞ HESABLARI

1.1. Standart Şərtlərin bu hissəsinə görə Bank, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına və bu Standart Şərtlərin müddəalarına uyğun olaraq Müştəriyə "Leobank" məhsulu çərçivəsində təqdim edilən bank xidmətləri üzrə nəzərdə tutulan müvafiq bank hesab(lar)ını açmağı, açılmış hesaba daxil olan pul vəsaitini qəbul edib mədaxil etməyi, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesaba mədaxil edilmiş pul vəsaitinin üzərinə Tariflərdə müəyyən edilmiş faiz dərəcəsi ilə faizlər hesablamağı (təklif edildikdə), hesab(lar) üzrə digər əməliyyatların aparılmasına dair Müştərinin sərəncamlarını yerinə yetirməyi, əvəzində isə Müştəri, ona göstərilmiş bank xidmətlərinin haqqını Bankın Tariflərinə əsasən ödəməyi öhdəsinə götürür.

1.2. Bank, Müştərinin müraciətinə əsasən qanunvericiliklə və bankdaxili qaydalarla müəyyən edilmiş sənədlər təqdim edildikdən sonra Müştəriyə bu Standart Şərtlərdə nəzərdə tutulan xidmətlər üzrə, habelə "Leobank" məhsulu çərçivəsində Müştəriyə kredit xəttinin ayrılması ilə əlaqədar kreditin uçotu və istifadəsi üzrə müvafiq bank hesablarını aça bilər. Müvafiq sənədlərin Müştəri tərəfindən təqdim edilməməsi hesabın açılmasından imtina üçün əsasdır.

1.3. Müştəri öz hesabının müstəqil sərəncamçısıdır. Müştərinin hesabındakı pul vəsaitinə dair sərəncam vermək hüquqlarının məhdudlaşdırılmasına yalnız qanunvericilikdə və bu Standart Şərtlərdə nəzərdə tutulmuş hallarda yol verilir.

1.4. Hesab üzrə hesablaşma və ya digər istənilən əməliyyat zamanı Bank tərəfindən hər hansı bir texniki səhv nəticəsində Müştərinin hesabına artıq vəsait köçürüldüyü təqdirdə, Bank bu vəsaiti Müştərinin razılığı alınmadan onun hesabından silir və ya hesaba köçürülmüş artıq vəsaitin dərhal Banka geri qaytarılmasını tələb edir.

1.5. Bank, qanunvericiliyin tələblərindən irəli gələn hallarda müştəridən onun maliyyə mənbələri, həmçinin imza hüququ olan şəxslərin eyniləşdirilməsinə dair məlumatları tələb edə bilər. Müştəri tələb olunan məlumatları Banka təqdim etmədikdə, Bank onunla mövcud olan münasibətlərə xitam verə bilər.

1.6. Müştərinin xarici valyutada olan hesabı üzrə əməliyyatların aparılması zamanı Azərbaycan Respublikasında mövcud valyuta rejiminə riayət olunmalıdır.

1.7. Müştərinin hesabından silinmələrə əsas, qanunvericilikdə və bu Standart Şərtlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, onun təqdim etdiyi ödəniş sənədləridir.

1.8. Ödəniş sənədləri yazıldığı gündən (yazılma günü nəzərə alınmadan) sonra 3 (üç) iş günü ərzində Banka təqdim edilə bilər.

1.9. Bankla Müştəri arasında hesabın kreditləşdirilməsi haqqında əlavə razılaşma yoxdursa, Bank Müştərinin hesabı üzrə əməliyyatları, hesabdakı qalıq çərçivəsində müəyyən olunmuş ardıcıllıq qaydasında aparır. Ödəniş sənədinin məbləği Müştərinin hesabındakı vəsait qalığından çoxdursa, Bank həmin ödəniş sənədini qanunvericiliklə müəyyən olunmuş ardıcıllıqla icra edir.

1.10. Müştəri üçün əməliyyat günü bankın daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilir.

1.11. Bankın daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilmiş vaxtdan sonra daxil olmuş ödəniş sənədləri növbəti iş günündə icra edilir.

1.12. Hesabdan çıxarışlar və digər sənədlər Müştərinin özünə və yalnız müvafiq etibarnamə əsasında onun nümayəndəsinə verilir.

1.13. Qanunvericilik və Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktları ilə müəyyən edilmiş tələblərin pozulması ilə tərtib edilmiş, habelə qüsurlu ödəniş sənədləri qəbul edilmir.

1.14. Ödəniş sənədinin Banka icra üçün təqdim edilmə vaxtı keçdikdə, ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda, ödənişin təyinatı və əsası göstərilmədikdə, rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda, üzərində düzəliş və ya pozulmalar edildikdə, nüsxələr eyni olmadıqda, ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında

uyğunsuzluq olduqda, möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda) ödəniş sənədi qüsurlu sayılır və Bank tərəfindən icra üçün qəbul olunmur.

1.15. Bank, Müştərinin cari hesabının qalıq məbləğinə əlavə faizlər təqdim edə bilər. Hesablanacaq illik faiz dərəcəsi tariflərlə tənzimlənir. Bu barədə mobil əlavə və ya internet səhifəsi vasitəsilə Müştəriyə məlumat verilə bilər.

1.16. Hesabdan Müştərinin sahibkarlıq fəaliyyəti ilə əlaqədar istifadə edilə bilməz. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar Müştərinin xeyrinə Banka pul vəsaiti daxil olduğu halda Müştərinin razılığı alınmadan həmin vəsait göndərən şəxsə ödənişin məbləğindən bank xidmət haqqı və Bankın çəkdiyi digər xərclər çıxılmaqla geri qaytarılır və ya Müştərinin Bankda sahibkarlıq fəaliyyəti ilə əlaqədar hesabı olarsa, məbləğ həmin hesaba köçürülür. Bankın, həmçinin bank xidmət haqqlarını və pul vəsaitinin göndərənə geri qaytarılması ilə bağlı çəkdiyi digər xərcləri Müştərinin bank hesablarından akseptsiz qaydada silmək hüququ vardır.

1.17. Bank tərəfindən qəbul edilərkən Müştərinin ödəniş sənədlərinin/sərəncamının qanunvericilik ilə müəyyən edilmiş tələblərə uyğunluğu yoxlanılır. Ödəniş sənədlərinin/sərəncamının məzmunu və forması qanunvericiliklə və ona uyğun müəyyənləşdirilmiş bankdaxili qaydalarla nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir. Bu tələblərin pozulması ilə tərtib edilmiş, habelə qüsurlu ödəniş sənədləri qəbul edilmir.

1.18. Müştəri ödəniş sərəncamı verdikdə, ödəniş əməliyyatı avtorizə edilmiş hesab olunur. Ödəniş sisteminə göndərilən ödəniş sərəncamı ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilən andan gerigötürülməz hesab olunur. Həmin anadək ödəniş sərəncamından istənilən vaxt imtina edilə bilər. Dövri ödəniş əməliyyatlarının icrası üzrə verilmiş sərəncamdan imtina nəticəsində Müştərinin seçimindən asılı olaraq ancaq icra vaxtı çatmış əməliyyat və ya bütün növbəti ödəniş əməliyyatları avtorizə edilməmiş hesab edilir və icra olunmur.

1.19. Müştəri, Bank ilə ödəniş sərəncamının icra olunması üçün müəyyən günü razılaşdırdıqda, Müştəri ödəniş sərəncamını ən geci razılaşdırılmış gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.

1.20. Birbaşa debitləşmə alətindən istifadə edildikdə Müştəri ən geci pul vəsaitinin ödəniş hesabından silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək ödənişin həyata keçirilməsi üzrə verdiyi sərəncamı geri götürə bilər.

1.21. Standart Şərtlərin 1.18 - 1.20-ci bəndlərində qeyd olunmuş müddətlərdən sonra ödəniş sərəncamı yalnız Bank ilə Müştəri arasında bağlanılmış müqavilədə nəzərdə tutulduğu halda və pul vəsaiti vəsait alanın ödəniş hesabına mədaxil edilmədiyi təqdirdə geri götürülə bilər.

1.22. Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.

1.23. Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur.

1.24. Bank ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra edir.

1.25. Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.

1.26. Ödəniş xidmətinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, digər hallarda Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilir və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaiti 5 iş günündən gec olmayaraq hesaba mədaxil edilir.

1.27. Ödəniş xidmətləri ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürülür.

1.28. Bank tərəfindən ödəniş əməliyyatının icra edilməsindən əvvəl ödəniş xidmətləri üzrə “Ödəniş xidməti və ödəniş sistemləri haqqında” Qanunla tələb olunan məlumatlar leobank.az saytında daimi olaraq yerləşdirilmişdir.

1.29. Bank ödəniş sərəncamını icra etdikdən sonra dərhal “Ödəniş xidmətləri və ödəniş sistemləri

haqqında" Qanunla tələb olunan məlumatlarla Müştərini mobil əlavə vasitəsilə pulsuz şəkildə məlumatlandırır. Sözügedən məlumatların müştəriyə təqdim edilməsi üçün müştəri mobil cihazına mobil əlavəni yükləməyi öhdəsinə götürür. Müştərinin sözügedən məlumatlar ilə digər əlaqə vasitələri ilə məlumatlandırılması Tariflərə uyğun olaraq həyata keçirilir.

1.30. Müştəri ödəniş əməliyyatının icrasından sonra 6 (altı) ay müddətindən gec olmayaraq hər hansı avtorizə edilməmiş və ya səhv icra olunmuş ödəniş əməliyyatlarını müəyyən etdikdə bu barədə Bankı dərhal məlumatlandırmalıdır. Bank avtorizə edilməmiş ödəniş əməliyyatı haqqında Müştəri bildirişi aldıqdan sonra bu bənddə qeyd olunmuş sübutları 5 (beş) iş günündən gec olmayaraq (ödəniş alətləri ilə ölkə xaricində aparılan əməliyyatlarda isə iştirakçısı olduğu ödəniş sisteminə dair qaydalar ilə müəyyən edilmiş müddətdə) təqdim edə bilmədikdə ödəniş əməliyyatının məbləğini Müştəriyə növbəti iş günündən gec olmayaraq geri ödəyir.

1.31. Bank avtorizə edilməmiş ödəniş əməliyyatının məbləğini bu ödəniş əməliyyatının icrası üçün Müştəridən tutulan bütün xidmət haqları ilə birgə Müştəriyə geri ödəyir.

1.32. Müştəri ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə və ya ödəniş əməliyyatının səhv icra olunduğunu bildirdikdə, Bank ödəniş əməliyyatının autentifikasiya olunduğunu, düzgün qeydə alındığını, ödəniş əməliyyatı üzrə məbləğin Müştərinin müəyyən etdiyi ödəniş hesabına mədaxil edildiyini və ödəniş əməliyyatının texniki nasazlıq və ya ödəniş xidməti təchizatçısının digər nöqsanı nəticəsində təsirə məruz qalmadığını sübuta yetirməlidir.

1.33. Müştəri, icra olunmuş ödəniş əməliyyatını avtorizə etdiyini inkar etdikdə, ödəniş alətinin istifadəsi faktı Müştərinin ödəniş əməliyyatını avtorizə etməsini və ya onun dələduzluq məqsədilə hərəkət etməsinə şübhə olmasını və ya təhlükəsizliyin qorunmasıyla bağlı vəzifələri qəsdən və ya kobud ehtiyatsızlıqdan yerinə yetirmədiyini sübuta yetirmək üçün kifayət deyildir. Bu halda Bank fırıldaqçılıq əməliyyatının baş verdiyini və Müştəri tərəfindən kobud ehtiyatsızlığın olunduğunu təsdiq edən aidiyyəti sübutları Müştəriyə təqdim etməlidir.

1.34. Bank, Müştəri tərəfindən verilən ödəniş sərəncamının icra olunmamasına, səhv icra edilməsinə, həmçinin pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə Müştəri qarşısında məsuliyyət daşıyır. Bu halda Bank səhv icra edilmiş, əsassız olaraq ödəniş hesabından silinmiş ödəniş əməliyyatı üzrə məbləği dərhal Müştərinin ödəniş hesabına bərpa etməlidir.

1.35. Bank, ödəniş əməliyyatının vaxtında və düzgün icrasını sübut etdikdə, vəsait alan qarşısında ödəniş əməliyyatının düzgün icra olunmasına görə məsuliyyət daşımır.

1.36. Bank, icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatlarının icrası üzrə və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə məsuliyyət daşıdığı halda, Müştəri tərəfindən ödənilən xidmət haqları və digər xərclərin məbləği də kompensasiya edilməlidir.

1.37. Müştəri, icra edilməyən, səhv icra edilən ödəniş əməliyyatlarına və ya pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsinə görə Bankdan ödəniş əməliyyatı üzrə məbləğ, xidmət haqqı və digər xərclərdən əlavə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinə uyğun olaraq faizlərin ödənilməsini tələb edə bilər.

1.38. Bank, Müştəri tərəfindən ödəniş sərəncamında səhv göstərilmiş məlumatlara görə ödəniş sərəncamının icra edilməməsi və ya səhv icra olunması üçün məsuliyyət daşımır.

1.39. Bank icra edilməmiş, səhv icra edilmiş ödəniş əməliyyatı üzrə və pul vəsaitinin əsassız olaraq ödəniş hesabından silinməsi üzrə Müştərinin tələbi əsasında xidmət haqqı tələb etmədən ödəniş əməliyyatının icrasını izləməli və bu haqda Müştərini məlumatlandırmalıdır.

1.40. Müştəri, birbaşa debitləşmə üzrə ödəniləcək məbləğ limitini müəyyən etməlidir. Bank, vəsait alan tərəfindən verilən ödəniş sərəncamı üzrə Müştərinin müəyyən etdiyi ödəniş məbləğindən yüksək məbləğdə ödəniş əməliyyatı apardığı təqdirdə artıq ödənilmiş məbləği geri ödəməlidir. Müştəri, bu halda vəsaitin onun ödəniş hesabından silindiyi tarixdən 2 (iki) ay müddətində ona xidmət göstərən ödəniş xidməti təchizatçısına müraciət edə bilər.

1.41. Bank, ödəniş əməliyyatı üzrə məbləğin geri ödənilməsi barədə Müştərinin müraciəti daxil olduqdan sonra 5 (beş) iş günü müddətində yuxarıda qeyd olunmuş hala uyğun olaraq artıq ödənilmiş məbləğin geri ödənilməsini təmin etməli və ya imtinanın səbəbləri haqqında əsaslandırılmış məlumatı Müştəriyə təqdim etməlidir.

1.42. Müqavilə ləğv edilərkən Bank, hesabdakı pul vəsaitinin qalığını Müştəriyə verir və ya Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci 7 (yeddi) təqvim günü keçənədək başqa hesaba köçürür. Hesabdakı pul vəsaitinin qalığı Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədikdə, həmin vəsait müvafiq müştəri kateqoriyasının bağlanmış hesablarının uçotu aparılan hesaba köçürülür.

## 2. ÖDƏNİŞ KARTI

2.1. Standart Şərtlərin bu hissəsinə görə Bank, Müştərinin ödəniş kartına (bundan sonra "kart") xidmət göstərilməsini və karta bağlı olan cari hesab vasitəsilə hesablaşma-kassa əməliyyatlarının aparılması üçün bank xidmətlərini göstərməyi, Müştəri isə Bankın müəyyən etdiyi tarif üzrə ona göstərilən bank xidmətlərinə görə müvafiq haqq ödəməyi öhdəsinə götürür. Bank tərəfindən tətbiq edilən illik xidmət haqqı ilə bağlı məlumatlar Bankın internet səhifəsində və/və ya mobil əlavədə yerləşdirilir.

2.2. Bu Standart Şərtlər çərçivəsində Müştəriyə təqdim olunan ödəniş kartı həm kredit, həm də debet kartı kimi istifadə oluna bilər. Kartdan nağdlaşdırmaya, ödənişlər və köçürmələrə görə komissiya Bankın tariflərinə uyğun olaraq tənzimlənir.

2.3. Kart Bankın mülkiyyəti hesab edilir və Müştərinin müvəqqəti istifadəsinə verilir.

2.4. Bu Standart Şərtlər çərçivəsində Müştəriyə "Leobank" ödəniş kartı və/və ya "Leo Prime" ödəniş kartı verilə bilər. Müştərinin istifadəsinə eyni anda həmin ödəniş kartlarından yalnız biri verilə bilər. "Leo Prime" ödəniş kartı yalnız "Leobank" ödəniş kartından istifadə edən Müştəriyə verilə bilər. İstifadəsində "Leobank" ödəniş kartı olan Müştəriyə "Leo Prime" ödəniş kartı verilərkən "Leobank" ödəniş kartının istifadəsi məhdudlaşdırılır və kart Bank tərəfindən bağlanılır. Bu zaman "Leobank" ödəniş kartına bağlı müvafiq hesab(lar)dan istifadə həmin hesab(lar)la bağlı bütün müvafiq məlumatlarla birlikdə (hesab rekvizitləri, hesabdakı pul vəsaitlərinin qalığı və s.) əvvəlki qaydada "Leo Prime" ödəniş kartında davam etdirilir. "Leo Prime" ödəniş kartı sifariş edilərkən kartın sifarişi üçün nəzərdə tutulan xidmət haqqı "Leobank" ödəniş kartına bağlı müvafiq hesab(lar)dan müştərinin sərəncamı olmadan tutulur. Kartın balansında kifayət qədər vəsait olmadıqda "Leo Prime" ödəniş kartının sifarişi mümkün olmur.

2.5. Müştəriyə "Leobank" ödəniş kartı və/və ya "Leo Prime"ödəniş kartı verilərkən, eyni zamanda Müştərinin istifadəsinə virtual ödəniş kartı da verilir.

2.6. "Leobank" ödəniş kartı və/və ya "Leo Prime" ödəniş kartı bağlandığı zaman Müştərinin istifadəsinə verilmiş virtual ödəniş kartı da avtomatik olaraq bağlanılır. "Leobank" ödəniş kartının və/və ya "Leo Prime" kartının bağlanması yalnız kartın balansında heç bir vəsait olmadıqda mümkün olur.

2.7. Virtual ödəniş kartının bağlanması "Leobank" ödəniş kartının və/və ya "Leo Prime" ödəniş kartının bağlanmasına səbəb olmur. Virtual ödəniş kartının bağlanması yalnız kartın balansında heç bir vəsait olmadıqda mümkün olur.

2.8. Kartla nağdsız ödənişə görə Bank tərəfindən Müştəriyə həvəsləndirici ödəniş (bundan sonra "kəşbək" adlandırılacaq) ödənilə bilər. "Kəşbək", Bank tərəfindən aylıq müəyyən edilir və hər bir Müştəriyə fərqli "kəşbək" kateqoriyaları təklif oluna bilər. Müştəriyə, "kəşbək" kateqoriyaları hər ay mobil əlavə vasitəsilə təklif olunur və Müştəri tərəfindən mobil əlavə vasitəsilə müvafiq "kəşbək" kateqoriyası üzrə seçim edilir.

2.9. Kartdan istifadə etməklə hesab üzrə əməliyyatların aparılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktları, həmçinin Bankın daxili qaydaları ilə müəyyən edilir.

2.10. Bank, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına və Bankın daxili qaydalarına uyğun olaraq təqdim edilən sənədlər əsasında Müştəriyə hesab açır və həmin hesabdan istifadə etmək üçün Müştəriyə kart verir.

2.11. Müştəri, kartın PIN-kodunu mobil əlavədə özü təyin edir. PIN-kodu Müştərinin imzasının analoqu hesab olunur. Müştərinin kartı və ya onun PIN-kodunu üçüncü şəxslərə ötürməsi qadağandır və kart və PIN-kodla əlaqəli təhlükəsizlik tədbirlərinə riayət edilməlidir.

2.12. Kart və digər müvafiq sənədləri olan qapalı zərfi Bankın təqdim etdiyi müvafiq sənədlərlə birlikdə Bankın xidmət ofislərində imza etməklə Müştəri tərəfindən şəxsən qəbul edilir və ya sifariş etməklə

olduğu yerdə əldə edə bilər.

2.13. Kartdan istifadə olunmaqla aparılmış bütün əməliyyatlara görə Müştəri məsuliyyət daşıyır.

2.14. Müştəri, kartın itməsi, oğurlanması, üzərində təhriflər edilməsi və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görməlidir. Kartın itirilməsi, oğurlanması və Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə sahibliyindən çıxması, onun sərəncamı olmadan digər vasitələrlə başqa şəxslər tərəfindən istifadə edilməsi hallarında ləngimədən onu bloklaşdırmaq lazımdır. Bu məqsədlə Bankın Məlumat Mərkəzinə (*7773 nömrəsi və ya “Leobank” mobil əlavəsinin “Dəstək 24/7” bölməsində göstərilən müvafiq messencerlər vasitəsilə), yaxud Banka xidmət göstərən kart prosessinq təşkilatına müraciət olunmalıdır. Kartın bloklaşdırılmasının digər üsul və vasitələri (SMS-banking, mobil əlavə və s.) haqqında müvafiq izahedici məlumatı internet səhifəsindən əldə etmək mümkündür. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsinə görə, eləcə də yuxarıda göstərilən hallarda kartdan istifadə etməklə aparılan əməliyyatlara görə Bank məsuliyyət daşımır.

2.15. Kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış hər hansı problem Bankın sərəncamında olmayan (digər şəxslərin idarə etdiyi) məlumat-informasiya sistemlərinin fəaliyyəti ilə əlaqədardırsa, Bank bu problemlərə görə Müştəri qarşısında məsuliyyət daşımır. Mübahisə yarandıqda, kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış problemin Bankın sərəncamında olmayan (digər şəxslərin idarə etdiyi) məlumat-informasiya sistemlərinin fəaliyyəti ilə əlaqədar olmadığı Müştəri tərəfindən sübut edilməyincə, həmin problemə görə Bankın məsuliyyəti istisna olunur.

2.16. Kartdan istifadə etməklə həyata keçirilən əməliyyatlar üzrə hesablaşmalar müvafiq yerli və ya beynəlxalq kart təşkilatlarının qaydalarına və bu Standart Şərtlərə uyğun şəkildə aparılır.

2.17. Müştərinin kart ilə apardığı nağd və ya nağdsız əməliyyatın valyutası kart hesabının valyutasından fərqləndiyi halda məbləğin konvertasiyası:

- Əməliyyat Bankın xidmət etdiyi qurğularda (bankomat, POS-Terminal, online ticarət) baş tutduğu təqdirdə Bankın tariflərində qeyd edilən məzənnə əsasında,
- Əməliyyat Bankın xidmət etmədiyi qurğularda baş tutduğu təqdirdə isə həm Bankın, həm də Bankla Ekvayer (mal, iş, xidmət təklif edən şəxsin müvəkkil bankı) arasında iştirak edən ödəniş təşkilatının (maliyyə əməliyyatlarının və hesablaşmaların həyata keçməsini təmin edən sistem) müəyyən etdiyi məzənnə əsasında aparılır.

2.18. Bu Standart Şərtlər Müştərinin ərizəsi əsasında, onun adına Bankda, Bankın filial və şöbələrində gələcəkdə açılacaq hər hansı növ bank hesabı üçün, habelə hər hansı ödəniş kartı təqdim edilməsi və ona xidmət göstərilməsi üçün hüquqi əsas ola bilər, bir şərtlə ki, qanunvericilikdə nəzərdə tutulan məcburi tələblərə əməl olunsun və Bank tərəfindən ayrı qayda müəyyən edilməsin.

2.19. Ödəniş sistemləri üzərində nəzarət funksiyasını Azərbaycan Respublikasının Mərkəzi Bankı həyata keçirir (Tel.: 493 11 22, Faks: 493 55 41, e-mail: mail@cbar.az).

2.20. Müştəri, kart vasitəsilə həyata keçirilmiş bütün əməliyyatlar, kart hesabının qalığı barədə məlumatın, eləcə də hesabdan çıxarışın əldə edilməsinin üsul və vasitələri haqqında məlumatları internet səhifəsindən əldə edə bilər.

2.21. Bank, internet şəbəkəsində Müştərinin kart ilə apardığı əməliyyatlara dair onun kart hesabından silinmələrə, kartdan PIN-kodun daxil edilməsi ilə istifadə olunması nəticəsində vəsait silinməsinə, habelə kartla silinmiş vəsaitin ödənilməsinə görə heç bir məsuliyyət daşımır.

2.22. Məsuliyyətin ötürülməsi qaydasının (liability shift rule) tətbiq edilmədiyi ölkələrdə icra olunan əməliyyatlar zamanı yaranan fırıldaqçılıq hallarına görə Bank kart istifadəçisi qarşısında məsuliyyət daşımır. Bu kateqoriyaya aid ölkələrdə aparılan əməliyyatlar zamanı Bankın internet səhifəsində yerləşdirilmiş təhlükəsizlik qaydalarına riayət edilməlidir.

## 3. HESAB VƏ ÖDƏNİŞ KARTI ÜZRƏ TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

3.1. **Bank aşağıdakı vəzifələri daşıyır:**

3.1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına və Bankın daxili qaydalarına uyğun olaraq təqdim edilən sənədlər əsasında müvafiq valyutalarda hesab açmaq;

3.1.2.Müştəriyə hesablaşma-kassa xidmətləri göstərmək:

- Müştərinin hesablarına daxil olan pul vəsaitini növbəti iş günündən gec olmayaraq (qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə müvafiq olaraq əlavə sənədlərin təqdim olunmasının tələb olunduğu hallar istisna olmaqla) hesablara mədaxil etmək və Müştərinin müraciətinə əsasən bu barədə Müştəriyə məlumat vermək;
- Müştərinin təqdim etdiyi ödəniş sənədlərini Banka daxil olduğu günün ertəsi iş günündən gec olmayaraq icra etmək;
- Müştəriyə kassa xidmətləri göstərmək;
- Müştərinin hesabından çıxarışları ona təqdim etmək;
- Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq Müştərinin hesab üzrə verdiyi digər sərəncamlarını yerinə yetirmək.

3.1.3.Müştərinin hesabı ilə bağlı istənilən sorğu və məktubları qanunvericiliklə müəyyən olunmuş müddət ərzində cavablandırmaq;

3.1.4.Müştərinin hesabına daxil olan pul vəsaitlərini zərurət yarandıqda Bankın daxili mübadilə məzənnəsinə uyğun qaydada konvertasiya etmək və bununla bağlı komissiya haqlarını Müştərinin hesablarından akseptsiz qaydada silmək;

3.1.5.“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən Bank tərəfindən hesab üzrə birtərəfli qaydada əməliyyatların icrasının dayandırılması, bank hesablarındakı vəsaitlərin dondurulması, bank hesablarının bağlanması (ləğv edilməsi) həyata keçirə bilər.

3.2.**Bankın aşağıdakı hüquqları vardır:**

3.2.1.Müəyyən edilmiş hallarda və qaydada ona ödənilməli olan pul vəsaitlərini (əsas borc, faiz, gecikdirilmə faizləri, xidmət haqqı, komissiya haqqı və s.) Müştərinin bütün valyutada olan hesablarından və digər əsaslarla ona çatası vəsaitlərdən akseptsiz qaydada silmək;

3.2.2.Kartdan qeyri-qanuni məqsədlərlə istifadə etməsi, limitləri aşması, hesabında borcun yaranması və ya Müştəri tərəfindən şərtlərə əməl olunmadığı digər hallarda kartdan istifadə edilməsini və hesab üzrə əməliyyatları dayandırmaq və ödəniş kartına/hesaba xidməti ləğv etmək;

3.2.3.Müştəri ilə bütün əlaqə vasitələri ilə aparılmış danışıqlar və görüntüləri qeydə almaq və texniki qurğuların (cihazların) yaddaşında saxlamaq;

3.2.4.Hesabın açılması üçün zəruri olan sənədlərlə yanaşı, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə zidd olmayan digər sənədlərin də təqdim edilməsini tələb etmək;

3.2.5.Aşağıdakı hallarda (o cümlədən bunlarla məhdudlaşmayaraq) bu müqaviləni birtərəfli qaydada ləğv edə və/və ya Müştəriyə məxsus hesabları bağlaya bilər:

3.2.5.1.Hesabdan qeyri-leqal məqsədlər üçün istifadə edildikdə;

3.2.5.2.Hesabdan sahibkarlıq fəaliyyəti ilə bağlı istifadə edildikdə;

3.2.5.3.Hesab üzrə 1 (bir) il ərzində əməliyyat aparılmadıqda;

3.2.5.4.Müştərinin hesabında saxlanılan pul vəsaitinin məbləği 6 (altı) ay ərzində 10 manatdan az olduqda, bir şərtlə ki, belə məbləğ Bankın bu barədə xəbərdarlıq etdiyi gündən 1 (bir) ay ərzində bərpa edilməmiş olsun;

3.2.5.5.Müştərinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilinmədiyi, Müştəri ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduğu və/və ya Müştərinin hesab üzrə apardığı əməliyyatların mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadığı hallarda;

3.2.5.6.Müştərinin banka təqdim etdiyi sənəd və/və ya məlumatlarda qeyri-dürüst, təhrif olunmuş və ya ziddiyyətli məlumatlar aşkarlandıqda;

3.2.5.7.Bu müqavilə və qanunvericilikdə qeyd edilən sənədlər və/və ya məlumatlar Müştəri tərəfindən təqdim edilmədikdə;

3.2.5.8.Müştərini 30 (otuz) təqvim günü əvvəlcədən xəbərdar etməklə;

3.2.5.9. Müştərinin ölümü və məhkəmə qaydasında ölmüş elan edilməsi barədə Banka rəsmi yazılı məlumat təqdim olunduqda;

3.2.5.10. Bu müqavilə üzrə öhdəliklərin icrası Müştəri tərəfindən pozulduqda;

3.2.5.11. Qanunvericilik və müqavilədə nəzərdə tutulmuş digər hallarda.

3.2.6. Müştərinin Bank qarşısında borc və digər öhdəlikləri üzrə məbləğləri, eləcə də mövcud Tariflər əsasında Müştəriyə göstərilmiş hər bir xidmət üzrə müvafiq komissiya haqqını, kredit prosedurlarına görə Bank tərəfindən təsdiq edilmiş komissiya haqlarını Müştərinin istənilən hesabından, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komissiya haqları tutulmaq şərtilə akseptsiz qaydada (Müştərinin sərəncamı olmadan) silmək;

3.2.7. Birtərəfli qaydada mövcud Tariflərdə və aparılan əməliyyatların qaydalarında dəyişiklik etmək. Tariflər Bankın internet səhifəsində yerləşdirilir və Müştəri internet səhifəsinə mütəmadi şəkildə daxil olaraq onlarla tanış olur;

3.2.8. İnvestisiya xidməti, o cümlədən marja ticarəti xidməti göstərən şirkətlərlə Müştəri arasında bağlanan müqavilələr üzrə (marja ticarəti xidməti göstərən şirkətlərlə Müştəri arasında belə müqavilə bağlandığı halda) Müştərinin öhdəliklərinin yerinə yetirilməsi məqsədilə zəruri məbləğdə pul vəsaitlərini hesabdan akseptsiz qaydada silmək və digər hesablara köçürmək;

3.2.9. Bank, kartın (hesabın) təhlükəsizliyi, kartdan dələduzluq məqsədilə və ya səlahiyyəti olmayan şəxs tərəfindən istifadə olunmasının qarşısının alınması, Müştərinin kredit xətti ayrılmış kart üzrə öhdəliklərini yerinə yetirə bilməməsi təhlükəsinin qarşısının alınması və digər risklər baxımından birtərəfli qaydada Müştərinin kartını bloklaşdırmaq və/və ya karta xidmət göstərilməsini dayandırmaq, birdəfəlik, gündəlik, həftəlik və aylıq əməliyyat limitlərini dəyişmək, kartının risk qrupunu dəyişmək və kartın üzərində digər sərəncam vermək hüququna malikdir. Bank, Müştərinin kartını səlahiyyətli dövlət orqan(lar)ının qərarı, fırıldaqçılıq hallarının araşdırılması ilə əlaqədar, hesab üzrə texniki overdraft yarandığı halda, Müştərinin müraciəti əsasında və qanunvericilik və bu Standart Şərtlərdə nəzərdə tutulan digər hallarda da bloklaşdıra bilər. Bank tərəfindən hər hansı səbəbdən kartın bloklaşdırılması halında kartdan bütün əməliyyatlar tam məhdudlaşdırılır;

3.2.10. Cari hesab və ödəniş kartı ilə bağlı gələcəkdə Müştərinin Bankda qeydiyyatda olan mobil nömrəsinə SMS vasitəsilə, mobil əlavə üzərindən və ya digər kommunikasiya vasitələrindən istifadə edilməklə Bank tərəfindən istənilən məzmunda yeniliklər, dəyişikliklər, yeni məhsullar barədə məlumatlar və kredit barədə təkliflər göndərilə bilər;

3.2.11. Aşağıdakı hallardan biri və ya bir neçəsi baş verdikdə Müştərinin bütün bank hesablarından və digər bütün əsaslarla ona çatası vəsaitlərdən cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komissiya haqları tutulmaq şərtilə müvafiq vəsaiti akseptsiz qaydada silmək hüququna malikdir:

a) Üçüncü şəxslər və ya Bank tərəfindən yalnışlıqla mədaxil edilmiş pul vəsaitlərini;

b) Bankın bankomat, POS-terminal və digər sistemlərində, cihazlarında baş verən texniki nasazlıqlar nəticəsində Müştərinin bank hesabında ona məxsus olmayan pul vəsaitlərinin istifadə imkanı mümkün olduğu təqdirdə çıxarıldığı hallarda. Müəyyən texniki səbəblərə görə hesabda mövcud olan pul vəsaitindən daha artıq istifadə oluna bilinməsi texniki overdraftın formalaşması ilə nəticələnə bilər. Texniki overdraft Bankla razılaşdırılmadan kartın balansında olan pul vəsaitindən artıq əməliyyat aparılması nəticəsində Müştərinin Bank qarşısında yaranmış borcudur və Müştəri tərəfindən bu müqavilədə müəyyən olunmuş qaydada ödənilməsi təmin edilməlidir.

3.2.12. Hesab üzrə texniki overdraft yarandığı halda Müştəri, Bank qarşısında yaranmış borcu texniki overdraftın yarandığı gündən ən geci 30 (otuz) iş günü ərzində ödəməlidir. Müəyyən edilmiş vaxtda Müştəri Bank qarşısında yaranmış borcunu ödəmədiyi təqdirdə, yaranmış texniki overdraft üzrə borc məbləği Bank tərəfindən Müştəriyə məxsus olan bank hesablarından, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komissiya haqları tutulmaq şərtilə akseptsiz qaydada silinə bilər.

a) Texniki overdraft baş verdiyi hallarda Müştərinin sərəncamı olmadan akseptsiz qaydada silmək üçün onun hesablarında pul olmadıqda və ya kifayət qədər pul olmadıqda yaranmış borc (texniki overdraft) Müştəriyə illik 30% hesablanmaqla 30 (otuz) təqvim günü müddətində Banka qaytarılmalıdır;

b) Yaranmış borc (texniki overdraft) və ona hesablanmış faizlər bu Müqavilənin 3.2.12-ci bəndinin "a" yarımbəndində nəzərdə tutulmuş müddət ərzində ödənilmədikdə ödənilməmiş borc gecikdirilmiş hesab edilir və həmin borca görə bu Standart Şərtlərin 3.2.12-ci bəndinin "a" yarımbəndində göstərilən illik faiz dərəcəsi ikiqat məbləğdə hesablanır. Faizlərin hesablanması borc tam ödənilənə qədər davam edir;

c) Borcun ödənilməsinin gecikdirildiyi hər təqvim günü üçün Müştəri ödənilməli olan məbləğin 0,5 (sıfır tam onda beş) %-i miqdarında Banka dəbbə pulu ödəyir;

ç) Texniki overdraft baş verdiyi hallarda yaranmış borc məbləği (texniki overdraft) və faizlər ödənilənə qədər Bank kartın fəaliyyətini (hesab üzrə əməliyyatları) dayandıra bilər və bununla əlaqədar Bankın çəkdiyi və ya çəkməli olduğu bütün xərclər Müştəri tərəfindən ödənilir.

3.2.13.Müştərinin bank hesabına və ya kart balansına səhvən və ya əsassız olaraq daxil olmuş və ya köçürülmüş və ya sonradan səhvən və ya əsassız olaraq daxil olduğu və ya köçürüldüyü müəyyən edilmiş pul vəsaitləri Müştəri tərəfindən geri qaytarılmadıqda və ya bu vəsaitlərin Bank tərəfindən akseptsiz silinməsi üçün onun bank hesablarında kifayət qədər pul vəsaiti olmadıqda, Müştərinin Bank qarşısında kredit öhdəliyi yaranır və kredit xətti açıla bilər (kredit xətti olan müştərilərə). Bu halda Müştəri, kreditdən istifadəyə görə Bankın həmin günə olan mövcud faiz dərəcələrinə uyğun olaraq illik faiz ödəməlidir. Aktiv kredit xətti olmayan müştərilərin hesablarında bu hal overdraft kimi tanınır;

3.2.14. Bank, müştərilər üçün müxtəlif aksiyalar, o cümlədən mobil tətbiq vasitəsilə oyunlar təşkil etmək və bu aksiyalarda və oyunlarda iştirak şərtlərini müəyyən etmək səlahiyyətinə malikdir. Bank, aksiyaların və oyunların şərtlərini və qaydalarını dəyişdirmək, oyunu ləğv etmək və ya mükafatların təqdim olunması ilə bağlı qərarları hər hansı bildiriş təqdim etmədən istənilən vaxt qəbul etmək hüququnu özündə saxlayır;

3.2.15. Müştəri tərəfindən 1 (bir) il ərzində heç bir ödəniş əməliyyatı həyata keçirilmədiyi halda, müştəriyə hesablanmış kəşbək məbləğini tam və ya qismən ləğv etmək.

3.3.**Müştəri aşağıdakı vəzifələri daşıyır:**

3.3.1.Hesabın açılması üçün zəruri olan sənədləri, eləcə də qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə Bank tərəfindən qanunvericiliyə zidd olmayan digər sənədlər tələb edildikdə onları Banka təqdim etmək;

3.3.2.Qanunvericiliyə və Bankın daxili qaydalarına uyğun olaraq hesab üzrə nağd və nağdsız qaydada əməliyyatlar aparmaq;

3.3.3.Hesab(lar)dan sahibkarlıq fəaliyyəti ilə bağlı istifadə etməmək;

3.3.4.Ödəniş sənədlərini Azərbaycan Respublikası Mərkəzi Bankının normativ hüquqi xarakterli aktlarına uyğun olaraq tərtib edərək Banka təqdim etmək;

3.3.5.Bank tərəfindən hesaba səhvən köçürülmüş məbləğdən istifadə etməmək və Bankı dərhal məlumatlandırmaq. Hesaba səhv daxil edilmiş pul vəsaitlərini ən geci növbəti əməliyyat günündən gec olmayaraq geri qaytarmaq;

3.3.6.Müştəriyə nəzərdə tutulmuş hallarda fiziki şəxslərin özünüqiymətləndirmə formaları təqdim olunduqda onları imzalamaq və lazım olunan sənədləri, məlumatları təqdim etmək;

3.3.7.Bank tərəfindən tələb edildikdə Banka düzgün və təhrif olunmamış məlumatlar təqdim etmək. Müvafiq qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində və əvvəllər Banka təqdim edilmiş məlumatlarda baş verən dəyişikliklər barədə belə dəyişikliklər baş verdiyi tarixdən 3 (üç) iş günü ərzində Banka məlumat vermək;

3.3.8.Müştəri, investisiya xidməti, o cümlədən marja ticarəti xidməti göstərən şirkətlərlə onun arasında bağlanan müqavilələr üzrə (marja ticarəti xidməti göstərən şirkətlərlə Müştəri arasında belə müqavilə bağlandığı halda) öhdəliklərinin yerinə yetirilməsi məqsədilə hesaba daxil olacaq zəruri pul vəsaitlərinin investisiya şirkətlərinin Bankda ABŞ dollarında olan cari hesabına köçürülməsi barədə Banka əvvəlcədən tapşırıq verir. Bank isə hesaba daxil olacaq zəruri pul vəsaitlərini daxil olduğu günün növbəti əməliyyat günündən gec olmayaraq akseptsiz qaydada silərək müvafiq investisiya

şirkətinin ABŞ dollarında olan cari hesabına daxil etməyi öz öhdəsinə götürür.

3.3.9. Kart vasitəsilə bir qayda olaraq hesabda olan pul vəsaitinin məbləği həddində əməliyyat aparmaq və Hesab üzrə texniki overdrafta yol verməmək. Texniki overdraft Bankla razılaşdırılmadan kartın balansında olan pul vəsaitindən artıq əməliyyat aparılması nəticəsində Müştərinin Bank qarşısında yaranmış borcudur və Müştəri tərəfindən tam ödənilməlidir;

3.3.10. Kartın ödəniş qabiliyyətli olması üçün hesabı nağd və ya nağdsız qaydada lazımi miqdarda pul vəsaiti ilə təmin etmək;

3.3.11. Hesabına daxil olan pul vəsaitlərini zərurət yarandıqda Bankın kommersiya məzənnəsinə uyğun qaydada Bank tərəfindən konvertasiya edilməsinə və bununla bağlı komissiya haqlarının onun hesablarından akseptsiz qaydada silinməsinə əvvəlcədən öz razılığını bildirir;

3.3.12. Kartın itməsi, oğurlanması, üzərində təhriflər edilməsi və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görməlidir. Kartın itirilməsi, oğurlanması və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi halları aşkarlandıqda, kartın üzərində təhriflər edildikdə Bankı dərhal məlumatlandırmalıdır;

3.3.13. Yeni kart verildiyi halda, yeni kartın verilməsi ilə bağlı bütün xərcləri ödəmək;

3.3.14. Hesabda olan pul vəsaitindən hər hansı qeyri-qanuni məqsəd, o cümlədən çirkli pulların yuyulması (qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılması) və terrorizmin maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat vermək və buna görə məsuliyyət daşımaq;

3.3.15. Təqdim edilmiş mobil və digər əlaqə nömrələrinin dəyişildiyi təqdirdə Banka 2 (iki) təqvim günü ərzində məlumat vermək. Məlumat verilmədiyi təqdirdə bütün növ əməliyyatlara (internet üzərindən online, beynəlxalq köçürmələr, POS terminal, ATM və digər) görə məsuliyyət Müştərinin üzərindədir;

3.3.16. Kartla bağlı məlumatları əldə etmək üçün Bankın internet səhifəsi ilə mütəmadi olaraq tanış olmaq;

3.3.17. Bank tərəfindən Müştəri ilə bütün əlaqə vasitələri ilə aparılmış danışıqların və görüntülərin qeydə alınmasına və Bankın müvafiq sistemlərində saxlanılmasına razıdır.

3.4. **Müştərinin aşağıdakı hüquqları vardır:**

3.4.1. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hesabdan istifadə etmək;

3.4.2. Lazımi dövr üçün Bankın Tariflərinə uyğun haqq ödəməklə hesabdan əlavə çıxarış, eləcə də hesabdan vəsaitin silinməsinin düzgünlüyünü təsdiq edən sənədləri Bankdan təqdim etməyi tələb etmək;

3.4.3. Kart vasitəsilə mal, iş, xidmətlərə görə hesablaşmalar aparmaq, bankomat (ATM) və POS-terminaldan nağd vəsait əldə etmək;

3.4.4. Kartdakı risk qruplarının dəyişdirilməsi üçün Banka müraciət etmək. Bu zaman yeni risk qrupu üzrə daha az təhlükəsizliyə görə məsuliyyət Müştərinin üzərindədir;

3.4.5. Kartın risk qrupu və əməliyyatların məhdudiyyətləri barədə Bankın internet səhifəsindən məlumat əldə etmək;

3.4.6. Mobil əlavə vasitəsilə kartı müvəqqəti bloklaşdırmaq. Mobil əlavə vasitəsilə kartın müvəqqəti bloklaşdırılması halında Müştəri, mobil əlavə, həmçinin GooglePay və ApplePay vasitəsilə kartdan əməliyyatlar apara bilər. Müştəri, GooglePay və ApplePay ödənişlərini də bloklaşdırmaq istədiyi halda Bankın *7773 nömrəsi və ya "Leobank" mobil əlavəsinin "Dəstək 24/7" bölməsində göstərilən müvafiq messencerlər vasitəsilə Banka müraciət edə bilər.

3.4.7. Bu Standart Şərtlərin 3.2.14-cü bəndində qeyd olunan aksiya və oyunlarda iştirak etmək.

## 4. ƏMANƏT MƏHSULLARI

4.1. Bank, aşağıda göstərilən əmanət məhsullarını Müştəriyə təklif edir və müvafiq məhsullar üzrə xidmətlər Müştəri tərəfindən mobil əlavə üzərindən analoq imza ilə imzalanmaqla tətbiq edilir:

- Faizləri ayda bir dəfə ödənilən əmanət məhsulu;
- Faizləri müddətin sonunda ödənilən əmanət məhsulu.

4.2. Bank, Müştəridən onun özü tərəfindən mobil əlavə vasitəsilə müəyyən edilmiş və əmanət hesabına köçürülmüş məbləğdə olan pul vəsaitini (əmanəti) qəbul edərək, mobil əlavə üzərindən analoq imza ilə imzalanmaqla razılaşdırılmış şərtlərlə və qaydada əmanət məbləğini Müştəriyə qaytarmağı və faiz ödəməyi öz öhdəsinə götürür.

4.3. Əmanətlər yalnız milli valyutada qəbul edilir. Əmanətin minimal müddəti 3 (üç) ay, maksimal müddəti 12 (on iki) ay, illik faiz dərəcəsi və faizlərin ödənilməsi şərtləri mobil əlavədə Müştəri tərəfindən seçim edilməklə müəyyən olunur.

4.4. Əmanət müddəti başa çatdıqdan sonra əmanətin və ona hesablanmış ödənilməmiş faizlərin Müştəriyə qaytarılması əmanət müqaviləsinin bitmə tarixindən sonrakı iş günü həyata keçirilir.

4.5. Bank tərəfindən birtərəfli qaydada əmanət müddəti ərzində faiz dərəcəsinin azaldılması nəzərdə tutulmur.

4.6. Əmanət müqaviləsinin qüvvədə olduğu müddət nəzərə alınmaqla, Bank əmanətinin məbləğinə faizlər bu məbləğin Banka daxil olduğu günün ertəsi günündən məbləğin Müştəriyə qaytarılmasından və ya başqa əsaslarla Müştərinin müvafiq əmanət hesabından silinməsindən əvvəlki günədək hesablanır.

4.7. Bank, əmanətin məbləğinə hesablanan faizləri aşağıdakı qaydada ödəyir:

4.7.1. Faizləri ayda bir dəfə ödənilən müddətli əmanət üzrə faizlər hər ayda bir dəfə;

4.7.2. Faizləri müddətin sonunda ödənilən müddətli əmanət üzrə faizlər müqavilənin müddəti bitdikdə.

4.8. Bütün şərtlər üzrə əmanətin vaxtından əvvəl tələb edilməsi hallarında, eləcə də əmanət hesabından pul vəsaitinin nağd və ya köçürülmə yolu ilə tam məxaric olunduğu təqdirdə əmanətin rəsmiləşdirmə müddətindən asılı olmayaraq faizlər Tariflərdə qeyd olunduğu qaydada ödənilir.

4.9. Bank əmanətdə olan məbləği və hesablanmış faizləri Müştərinin cari hesabına mədaxil etməklə ödəyir.

4.10. Əmanət məbləğinin vaxtından əvvəl ödənilməsi aşağıdakı qaydada həyata keçirilir:

4.10.1. Bank, Müştərinin ilk tələbi ilə əmanət məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə ən geci 5 bank günü müddətində ödəyir. Bu halda Bank Müştəriyə əmanətin vaxtından əvvəl qaytarılması halında ödənilmiş faizləri Bank tərəfindən müəyyən edilmiş tariflərə və şərtlərə uyğun qaydada akseptsiz (Müştərinin sərəncamı olmadan) geri tutur və yekun məbləği yenidən hesablayaraq ödəyir.

4.11. Əmanət üzrə tərəflər arasındakı razılıqlar bu Standart Şərtlər Müştəri tərəfindən qəbul olunduğu tarixdən qüvvəyə minir və Standart Şərtlərin qüvvədə olduğu müddətin sonunadək qüvvədə qalır. Əmanət şərtləri mobil əlavə üzərindən analoq imza ilə imzalanmaqla seçilir və hər iki tərəf üçün öhdəliklər icra olunana qədər qüvvədə olmuş sayılır.

4.12. Müştəri, mobil əlavə üzərindən əmanət şərtləri ilə bağlı seçimlərini təsdiq etdiyi gün ərzində həmin şərtlərlə müəyyən olunmuş əmanət məbləğini əmanət hesabına köçürməlidir. Bu vəsait köçürülmədikdə əmanət əməliyyatı baş tutmamış hesab edilir.

4.13. Müştəri, əmanət hesabındakı pul vəsaitini məxaric etdiyi halda, o cümlədən əmanət hesabında olan pul vəsaiti Müştərinin Bank qarşısında olan öhdəliklərinin təmin edilməsi məqsədilə Müştərinin əmanət hesabından akseptsiz qaydada silindikdə, həmçinin qanunvericiliklə müəyyən olunmuş qaydada səlahiyyətli dövlət orqanlarının qərarlarının icrası ilə əlaqədar əmanət hesabından pul məxaric edildikdə əmanət üzrə Bankın öhdəlikləri bu Standart Şərtlərin və/və ya Müştəri ilə bağlanan müvafiq əmanət müqaviləsinin şərtlərinə uyğun olaraq ləğv edilmiş sayılır.

4.14. Bu Standart Şərtlər çərçivəsində bağlanan əmanət müqavilələri bağlandığı andan qüvvəyə minir və həmin əmanət müqavilələrində qeyd olunan müddət bitənə qədər qüvvədə qalır. Müştəri, ən geci əmanət müqaviləsinin müddəti bitdiyi gün müqavilənin ləğv edilməsi barədə Banka məlumat vermədikdə əmanət müqaviləsinin bitmə tarixindən sonrakı gün əmanət müqaviləsi qüvvədə olan tariflərlə eyni müddətə uzadılır (artırılır). Artırılmış müddət üçün əmanət üzrə həmin an Bankda qüvvədə olan faiz dərəcələri (həmçinin, əmanətin vaxtından əvvəl götürülməsi halları üçün müəyyən edilmiş faiz dərəcələri) tətbiq edilir. Əmanət, qorunan əmanətlər üçün müəyyən edilmiş illik maksimal faiz dərəcəsi həddində (həmin faiz dərəcəsindən çox olmamaqla) yerləşdirildiyi halda artırılmış müddət üçün də qorunan əmanət üzrə maksimal faiz dərəcəsi həddi saxlanılır.

4.15. Əmanət hesabından pul vəsaitinin məxaric olunduğu təqdirdə, Müştərinin Bank qarşısında üzərinə götürdüyü borc öhdəlikləri üzrə gecikdirilmiş məbləğlərin, faiz borclarının və dəbbə pulunun akseptsiz silindiyi hallarda bu əmanət ləğv olunmuş hesab olunur.

## 5. ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU, BANK VƏ ƏMANƏTÇİ

5.1. Bank 30 iyul 2007-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – “Fond”) iştirakçısı olaraq (21 saylı Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur).

5.2. Bank tərəfindən Əmanətçidən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər Fond tərəfindən sığortalanır.

5.3. Sığorta hadisəsi - Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Əmanətçi qarşısında əmanət üzrə öhdəlikdərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Əmanətçi qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilməsidir.

5.4. Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitəsilərində Əmanətçiyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir: a) AzTV; b) İctimai TV; c) Azərbaycan qəzeti; d) Respublika qəzeti; e) Xalq qəzeti; f) AzərTAc informasiya agentliyi; g) APA informasiya agentliyi.

5.5. Fonddan kompensasiya almaq üçün Əmanətçi kütləvi informasiya vasitəsilərində göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

a) Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd;

b) Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənəd;

c) Bank əmanəti müqaviləsi;

d) Kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni Fonda təqdim etməlidir.

Ərizəni verildiyi tarixdən etibarən 30 (otuz) təqvim günü müddətində Fond tərəfindən Əmanətçiyə kompensasiya ödənilməlidir. Müstəsna hallarda Fondun Himayəçilik Şurasının qərarı ilə Fond kompensasiyaların ödəniş müddətini 30 (otuz) təqvim gününədək uzada bilər. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

5.6. Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

a) Bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

b) qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;

c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;

d) üzərinə həbs qoyulmuş əmanətlər;

e) Cəlb edildiyi günə “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanunun 8.1.20-ci bəndinə uyğun olaraq müəyyən edilən həddən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər (qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddini Mərkəzi Bankla razılaşdırmaqla Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilir);

f) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi min) manatdan yuxarı pul vəsaitləri;

g) fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

5.7. Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 (bir yüz) manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir. Sığorta hadisəsi baş verdiyi günə əmanətçinin iştirakçı bank qarşısında vaxtı çatmış öhdəliyi olduqda əmanət üzrə kompensasiya hesablanmış faizlər də daxil olmaqla əmanətçinin bank qarşısında icra edilməyən öhdəliyinin hissəsi qorunan əmanətinin məbləğindən çıxılmaqla qalıq hissəsi üzrə ödənilir.

5.8. Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, AVRO-da olan əmanət üzrə isə AVRO-da Əmanətçiyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çapraz məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Əmanətçiyə ödəyir.

5.9. Əmanətçinin Bankda bir neçə əmanəti yaxud həmin əmanətlər müxtəlif valyutalarda oldugu zaman, Fond həmin əmanətləri toplayır və bir əmanət kimi kompensasiya olunur. Əmanətçinin Fondun hər hansı digər iştirakçı bankında olan əmanətinə isə ayrıca əmanət kimi baxılır və kompensasiya ödənilir.

5.10. Əmanətlərin Sığortalanması Fondu (bundan sonra "Fond") kompensasiyanın ödənilməsi üçün səhv və ya yanlış məlumatlar təqdim etmiş, yaxud qanunsuz olaraq kompensasiya alınması üçün müraciət etmiş şəxslərə kompensasiya ödəməkdən imtina edir və ya ödənilmiş məbləğin geri qaytarılmasını tələb edir.

5.11. Bank, Əmanətlərin Sığortalanması Fonduna sığorta Fondun reyestrinə daxil olduğu gündən sonra 10 təqvim günü müddətində 10 000 (on min) manat məbləğində üzvlük haqqı, Fondun reyestrinə daxil olduğu gündən başlayaraq, birinci ildə qorunan əmanətlərin rüb ərzində orta günlük qalıq məbləğinin 0,15 faizi, sonrakı illərdə isə 0,125 faizi həcmində təqvim haqqı və qanunvericilikdə nəzərdə tutlmuş hallarda və həcmdə əlavə haqq ödəyir.

5.12. Bank Əmanətçinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə Əmanətçiyə məlumat verir.

5.13. Əmanətçi aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 696 65 93; Faks: (99412) 596 65 94; Qaynar xətt 941, email: adif@adif.az, sayt: www.adif.az

5.14. Faizləri "Əmanətlərin sığortalanması haqqında" AR Qanununun 8.1.20-ci maddəsinə müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq Fondun iştirakçı bankları tərəfindən "Əmanətlərin tam sığortalanması haqqında" AR Qanununa əsasən tam sığortalanır.

## 6. "XƏZİNƏ" XİDMƏTİ

6.1. "Xəzinə" xidməti vasitəsilə Müştəri, mobil əlavədə xüsusi bölmə (bundan sonra "Xəzinə") yaradaraq pul vəsaitlərini toplaya bilər.

6.2. "Xəzinə" xidməti yalnız mobil əlavədə aktivləşdirilə bilər. Müştəri, şəxsi vəsaitlərini bu bənddə göstərilən şərtlər çərçivəsində və mobil əlavədə istifadəyə verilmiş "Xəzinə" bölməsində təqdim olunan pul vəsaitlərinin toplanılması üsullardan birini istifadə etməklə toplaya bilər.

6.3. Bank, bu bəndin şərtlərinə müvafiq olaraq pul vəsaitlərini Müştəridən qəbul edir və bu bənddə müəyyən olunmuş qaydada və şərtlərlə pul vəsaitlərini Müştəriyə qaytarır.

6.4. Bu xidmət üzrə pul vəsaitlərinin daxil edilməsi və çıxarılması yalnız Azərbaycan manatı ilə həyata keçirilir. Müştəri, pul vəsaitlərini mobil əlavədə əks olunan ödəniş kart(lar)ından artıra bilər.

6.5. Müştəri "Xəzinə"yə istənilən vaxt və istənilən məbləğdə pul mədaxil edə bilər. Bundan başqa, Müştəri aşağıdakı avtomatik üsullardan birini seçməklə də "Xəzinə"yə pul mədaxil edə bilər:

6.5.1. Günün sonu ödəniş kartında qalan məbləğin qəpik hissəsinin mədaxil edilməsi üsulu ilə (Məsələn, Müştəri gün ərzində apardığı əməliyyat(lar)dan sonra kartında 83.80 manat pul qalıb. Bu zaman kartda qalan pulun 0.80 manatı "Xəzinə"yə mədaxil edilir, 83 manat isə kartda qalır);

6.5.2. Günün sonu ödəniş kartından gün ərzində xərclənən məbləğlərin cəminin qəpik hissəsinin yuvarlaqlaşdırılması üsulu ilə. Xərclənən məbləğ(lər)in yuvarlaqlaşdırılması 1, 5 və ya 10 manat həcmində olmaqla, Müştəri tərəfindən müəyyən olunur (Məsələn, Müştəri gün ərzində ümumilikdə 56.58 manat xərcləyib, əgər xərclənən məbləğin 1 manat həddində yuvarlaqlaşdırılmasını seçibsə, bu zaman xərclənən vəsait 57 manat kimi götürülərək 0.42 manat (57 – 56.58) "Xəzinə"yə mədaxil edilir. Müştəri, gün ərzində ümumilikdə 56 manat xərclədikdə isə hər hansı yuvarlaqlaşdırılma aparılmır və "Xəzinə"yə avtomatik mədaxil edilmir);

6.5.3. Günün sonu ödəniş kartından gün ərzində xərclənən məbləğlərin müvafiq faizləri həddində. Bu zaman Müştərinin seçiminə əsasən xərclənən məbləğlərin 1, 3, 5, 7 və ya 10 %-i həcmində pul vəsaiti mədaxil edilə bilər (Məsələn, Müştəri gün ərzində 10 manat pul xərcləyib, xərclənən vəsaitin 10 %-i seçildiyi halda bu zaman 1 manat məbləğində vəsait "Xəzinə"yə mədaxil edilir);

6.5.4. Öncədən qeyd olunmuş məbləğin dövri olaraq ödəniş kartından "Xəzinə"yə köçürülməsi üsulu ilə.

Pul vəsaitlərinin avtomatik mədaxil edilməsi dövriliyi Müştərinin seçimi əsasında hər gün, həftədə bir dəfə, bir həftədən bir və ya ayda bir dəfə həyata keçirilə bilər. Bu zaman mədaxil edilən pul vəsaiti Müştərinin seçimi əsasında 1, 5, 10, 25, 50, 100, 150 və ya 200 manat həcmində ola bilər.

6.6. Müştəri, bu Standart Şərtlərin 6.5.1 – 6.5.4-cü bəndlərində göstərilən "Xəzinə"nin avtomatik artırılması üsullarından hər hansı birini onun tərəfindən eyni anda yaradılmış yalnız bir "Xəzinə" üzrə istifadə edə bilər.

6.7. Müştərinin kartında yetərli vəsait olmadıqda "Xəzinə"nin artırılması həyata keçirilmir.

6.8. Müştəri, pul vəsaitlərinin toplanması üçün eyni anda 10 "Xəzinə" yarada bilər. Bu "Xəzinə"lərin hər biri üzrə toplanan vəsaitlərin maksimal məbləği Müştəri tərəfindən sərbəst müəyyən edilir.

6.9. Bu Standart Şərtlərin qüvvədə olduğu müddət çərçivəsində pul vəsaitlərinin toplanması üçün maksimal müddət müəyyən olunmur və Müştəri tərəfindən "Xəzinə"yə mədaxil edilmiş pul vəsaitləri bu bəndin şərtləri nəzərə alınmaqla sərbəst şəkildə Müştərinin mobil əlavədə olan kartına köçürülür.

6.10. Pul vəsaitlərinin çıxarılması toplanan vəsaitlərin yalnız Müştərinin manatla açılmış mobil əlavədə əks olunan ödəniş kart(lar)ına köçürməklə həyata keçirilə bilər.

6.11. Müştəri, "Xəzinə"də toplanan vəsaitlərin məbləği barədə məlumatı istənilən vaxt mobil əlavədən əldə edə bilər.

6.12. "Xəzinə"yə mədaxil edilmiş vəsaitlərə Bank tərəfindən faizlər hesablanaraq ayda bir dəfə müvafiq "Xəzinə"yə mədaxil edilir. Faizlər pul vəsaitlərinin "Xəzinə"yə mədaxil edildiyi günün ertəsi günündən etibarən hesablanır və hər ay "Xəzinə"nin açıldığı günün eyni günündə həmin günədək hesablanmış faizlər "Xəzinə"yə mədaxil edilir. Bu zaman faizlərin ödənilməsi üçün müəyyən olunan gün müvafiq günü olmayan aya düşərsə, faizlər növbəti ayın ilk günündə "Xəzinə"yə mədaxil edilir.

6.13. Müştəri, "Xəzinə"nin açıldığı vaxtdan bir ay tamam olmamış və ya "Xəzinə"dəki vəsaitlərə aylıq faizlər ödənildikdən sonra növbəti bir ay tamam olmamış "Xəzinə"dəki vəsaitləri məxaric edərsə, həmin günədək hesablanmış və ödənilməmiş faizlər müvafiq karta mədaxil edilir.

6.14. Faizlərlə bağlı məlumatlar Bankın internet səhifəsində və/və ya mobil əlavədə göstərilir. Bank tərəfindən istənilən vaxt faizlərə birtərəfli qaydada dəyişiklik edilə bilər. Faizlərlə bağlı dəyişikliklər Bankın internet səhifəsində və/və ya mobil əlavədəyerləşdirildiyi gündən 5 (beş) təqvim günü sonra qüvvəyə minir və həmin dəyişikliklərin qüvvəyə mindiyi vaxtdan əvvəl Müştəri tərəfindən yaradılan "Xəzinə" üzrə nəzərdə tutulmuş faizlərə də tətbiq edilir.

6.15. Bank tərəfindən xidmətin göstərilməsinə görə Müştəridən hər hansı xidmət haqqı tələb olunmur.

6.16. Müştəri "Xəzinə"də toplanan vəsaitlərdən hər hansı ödəniş və digər əməliyyatları, yalnız həmin vəsaitləri mobil əlavədə olan kartına köçürməklə həyata keçirə bilər.

6.17. Müştərinin Bank qarşısında icra edilməmiş və ya lazımınca icra edilməmiş öhdəlikləri mövcud olarsa, Bank Müştərinin "Xəzinə"də toplanan vəsaitlərini Müştərinin sərəncamı olmadan akseptsiz qaydada silərək öhdəliklərin icrasını təmin edə bilər. Bu zaman "Xəzinə"də toplanan vəsaitlər Müştərinin kartına mədaxil edilərək ödəniş kartından akseptsiz qaydada silinir. Müştəri tərəfindən bir neçə "Xəzinə" yaradıldığı halda, öhdəliyin həcmindən asılı olmayaraq bütün "Xəzinə"lərdə olan vəsaitlər akseptsiz qaydada silinməsi üçün Müştərinin kartına mədaxil edilir.

## 7. ELEKTRON XİDMƏTLƏR

7.1. Bu Standart Şərtlər çərçivəsində Müştəri Bankın mövcud və gələcəkdə təklif edəcəyi bütün növ elektron xidmətlərdən istifadə hüququnu əldə edir. Müştəri, elektron xidmətlər haqqında ətraflı məlumatları Bankın internet səhifəsindən əldə edə bilər.

7.2. Bu Standart Şərtlər çərçivəsində nəzərdə tutulan məsafədən elektron xidmət vasitələrinə aşağıdakılar aiddir:

7.2.1. Bankın Məlumat Mərkəzi (Bankın *7773 nömrəsinə (və ya Bank tərəfindən mobil əlavə və ya internet səhifəsində göstərilən digər nömrəyə) zəng edərək);

7.2.2. Bankın mobil əlavəsi;

7.2.3. Bankın internet səhifəsi;

7.2.4. Məlumat ismarışları (mobil əlavədə keçidləri olan mesajlaşma vasitələri ilə).

7.3. Mobil bankçılıq vasitəsilə aşağıdakı əməliyyatlar aparıla və/və ya sənədlər imzalana bilər:

- Cari və əmanət hesablarının açılması, buna dair müvafiq sənədlərin, o cümlədən əmanət müqavilələrinin, kredit xətti müqavilələrinin, bank hesabları üzrə xidmət müqavilələrin imzalanması və yaxud bu Standart Şərtlərin qəbul (aksept) edilməsi;
- Cari bank hesabının bağlanması ilə bağlı müraciət etmək;
- Müştərinin cari hesablarından pul vəsaitinin cari və əmanət hesablarına köçürülməsi (o cümlədən ödəniş kartından bank hesablarına və bank hesablarından ödəniş kartlarına);
- Bank qarşısında olan kredit borclarının ödənilməsi və kredit limitinin dəyişdirilməsi üçün müraciət edilməsi;
- Bank hesablarından çıxarışların və  Müştərinin rekvizitlərinin Bankın qüvvədə olan tariflərinə uyğun Müştərinin hesablarından akseptsiz qaydada komissiya haqqının silinməsi şərtilə Müştərinin elektron poçt ünvanına göndərilməsi;
- Ödəniş kartlarının sifarişi. Müştəri, ödəniş kartlarını yalnız mobil bankçılıq vasitəsilə sifariş verilə bilər. Müvafiq sənədlər Bankın əməkdaşının iştirakı ilə Müştərinin eyniləşdirilməsindən sonra imzalanır;
- Ödəniş kartlarının sifarişi, yeni hesab açılması üçün Müştərini eyniləşdirmək məqsədilə Bankın əməkdaşı ilə video eyniləşdirmə aparılması;
- Ödəniş kartlarının risk qrupunun dəyişdirilməsi (kreditin alınması, istifadə edilməsi və ödənilməsi üçün verilmiş, o cümlədən istifadəçisi eyniləşdirilməmiş ödəniş kartları istisna təşkil edir);
- Ödəniş kartlarının bloka salınması və blokdan azad edilməsi. Bu zaman yalnız mobil bankçılıq vasitəsi ilə bloka salınmış ödəniş kartları blokdan azad oluna bilər;
- Təminatsız kreditlərin əldə edilməsi üçün sifariş verilməsi.

7.4. Müqavilələr və bu müqavilələrə aid digər sənədlər qanunvericilikdə nəzərdə tutulmuş digər hallar istisna olmaqla analoq imza ilə təsdiqlənir.

7.5. Bu bənddə göstərilən xidmətlər üzrə Müştəri, öz üzərinə aşağıdakı öhdəlikləri götürür:

7.5.1. Mobil telefon SIM-kartının və mobil cihazının itməsi, oğurlanması və digər vasitələrlə onun sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görmək;

7.5.2. Mobil telefon SIM-kartının və/və ya mobil cihazının itirilməsi, oğurlanması və digər vasitələrlə onun sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi barədə məlumatı dərhal Bankın *7773 nömrəsinə (və ya Bank tərəfindən mobil əlavə və ya internet səhifəsində göstərilən digər nömrəyə) zəng edərək məlumat vermək;

7.5.3. Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsi haqqında Qaydalarına və mobil bankçılığa Bank tərəfindən birtərəfli qaydada dəyişikliklərin edilməsi hüququnu qəbul edir. Qaydalara edilmiş dəyişikliklər mobil bankçılıqda yerləşdirildikdən 3 (üç) gün sonra Müştəri tərəfindən qəbul edilmiş və dəyişikliklərə razılıq verilmiş hesab olunur.

7.6. Bu bənddə göstərilən xidmətlər üzrə Müştərinin aşağıdakı hüquqları var:

7.6.1. Mobil bankçılıq vasitəsilə nəzərdə tutulmuş əməliyyatları aparmaq və sənədləri imzalamaq;

7.6.2. Mobil bankçılıq vasitəsilə aparılmış hər hansı əməliyyatla bağlı Banka sorğu və etiraz bildirmək.

7.7. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı təsdiqlənmiş elektron sənədlər kağız daşıyıcıda olan Müştərinin şəxsi imzası ilə təsdiqlənmiş müvafiq sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

7.8. Müştəri qəbul edir ki, Bank tərəfindən birtərəfli qaydada dəyişdirilmiş Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsi haqqında Qaydalar, mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı təsdiqlənmiş elektron sənədlər mübahisələrin həlli zamanı sübutdurlar.

7.9. Müştəri, mobil bankçılıqda qeydiyyat zamanı daxil etdiyi məlumatların tam və düzgün olduğunu, bütün məlumatların onun özünə məxsus olduğunu təsdiq edir. Hər hansı məlumatın səhv daxil edilməsinə və ya ona məxsus olmayan məlumatın daxil edilməsinə, bununla bağlı yarana biləcək bütün risklərə görə məsuliyyət Müştərinin üzərinə düşür.

7.10. Mobil telefon SIM-kartının və/və ya mobil cihazının itirilməsi, o cümlədən  oğurlanması və digər vasitələrlə Müştərinin sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi

nəticəsində Müştəriyə dəymiş zərərə görə Bank məsuliyyət daşımır.

7.11. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı Müştəri tərəfindən rekvizitlərin, məbləğlərin və ya digər məlumatın səhv daxil edilməsinə görə və bunun nəticəsində ona dəymiş zərərə görə Bank məsuliyyət daşımır.

7.12. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət Müştərinin üzərinə düşür.

## 8. XARİCİ DÖVLƏTLƏRİN FİZİKİ ŞƏXSLƏRİNİN MALİYYƏ ƏMƏLİYYATLARI BARƏDƏ HESABATLARIN TƏQDİM EDİLMƏSİ

8.1. "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların müəyyən edilməsi ilə bağlı hərtərəfli yoxlama prosedurlarının həyata keçirilməsi Qaydaları"na əsasən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan hesabatlar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən təyin olunmuş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hədlərdə və qaydada birbaşa və ya müvafiq icra hakimiyyəti orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına verilir.

8.2. Xarici dövlətlərin fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların müəyyən edilməsi ilə bağlı hərtərəfli yoxlama prosedurlarının həyata keçirilməsinə əsasən hesabat verən maliyyə institutu fiziki şəxslərin hesabat verilməli hesablarının müəyyənləşdirilməsi məqsədi ilə müştəridən zəruri olan özünüqiymətləndirmə sənədi və *W-8 BEN (W-8 BEN-E)* və *W-9* formaları tələb edilir.

8.3. Hesab açmaq üçün müraciət etmiş müştəri tərəfindən formalardan müvafiq olanı təqdim edilmədikdə Bank tərəfindən hesabın açılmasından imtina oluna bilər.

## 9. MÜQAVİLƏ MÜNASİBƏTLƏRİNƏ XİTAM VERİLMƏSİ

9.1. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrə aşağıdakı hallarda və qaydada xitam verilə bilər:

9.1.1. Bank tərəfindən Müştərini məlumatlandırmaqla birtərəfli qaydada;

9.1.2. Məhkəmənin qanuni qüvvəyə minmiş akt(lar)ına əsasən;

9.1.3. Müştərinin müraciəti əsasında istənilən vaxt, bir şərtlə ki, Müştərinin Bank qarşısında hazırki Müqavilə üzrə təqdim olunan xidmətlər üzrə heç bir öhdəliyi olmasın;

9.1.4. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər hallarda.

9.2. Qanunvericiliklə başqa cür müəyyən olunmuş hallar istisna olmaqla, Müştəri ilə Bank arasında bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə xitam verildiyi halda tərəflər bir-biriləri qarşısında müqavilə münasibətlərindən irəli gələn bütün öhdəliklərini icra etmiş olmalıdırlar.

9.3. Bank, Müştəriyə mobil əlavə vasitəsilə bildiriş göndərərək Müştərini məlumatlandırmaqla bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə bildiriş göndərildiyi tarixdən birtərəfli qaydada xitam verə bilər. Bildiriş göndərildikdən sonra Bank tərəfindən Müştərinin bu Standart Şərtlər çərçivəsində bütün əməliyyatları məhdudlaşdırılır və Müştərinin Bank qarşısında icra edilməli olan bütün öhdəlikləri onun Bankda olan və ona çatası vəsaitlərindən akseptsiz qaydada silinərək icra edilir.

9.4. Müştəri, bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrə xitam vermək istədikdə, Bankın *7773 nömrəsi və ya "Leobank" mobil əlavəsinin "Dəstək 24/7" bölməsində göstərilən müvafiq messencerlər vasitəsilə Banka müraciət edərək müqavilə münasibətlərinə xitam vermək barədə niyyətini bildirir. Bu zaman Müştərinin Bank qarşısında icra edilməli hər hansı öhdəliyi olmadıqda Müştəri ilə Bank arasında bu Standart Şərtlərdən irəli gələn müqavilə münasibətlərinə xitam verilir.

## 10. MÜBAHİSƏLƏRİN HƏLLİ. PRETENZİYALAR

10.1. Müştəri hesab üzrə çıxarışda göstərilən əməliyyatlara, eləcə də əsassız silinmələrə etiraz etdikdə etiraz etdiyi əməliyyatın baş verdiyi tarixdən 5 (beş) iş günü müddətində Banka pretenziya təqdim

etməli və etirazını əsaslandırdığı halları pretenziyada göstərməlidir. Bu müddət ərzində pretenziya təqdim edilmədikdə və ya hesab üzrə çıxarışda göstərilən əməliyyatlara etirazın əsaslandırıldığı hallar pretenziyada göstərilmədikdə, hesab üzrə çıxarışda göstərilən əməliyyatlar təsdiq olunmuş hesab edilir. Bank, Müştəri tərəfindən ödəniş xidməti ("Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun 3.1-ci maddəsində nəzərdə tutulan xidmət) üzrə şikayətin daxil olduğu tarixdən 7 (yeddi) iş günü müddətində müraciətə baxır və nəticəsi barədə Müştərini məlumatlandırır. Müraciətə baxılması bu müddətdə mümkün olmadığı halda həmin müddətdən gec olmayaraq şikayətə baxılması müddətinin artırılmasının səbəblərini əsaslandırmaqla şikayətə baxılması müddəti barədə Müştəriyə məlumat verir. Banka şikayətin verilməsi Müştərinin məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.

10.2. Müştərinin etirazına baxılması üçün Bank, tariflərlə müəyyən edilən xidmət haqqı həcmində vəsaiti (kifayət qədər vəsait olmadıqda Müştəri hesabını artırmalıdır) Müştərinin Bankda olan hesabında bloklaşdırır. Etirazın əsassız olduğu müəyyən edilərsə bloklaşdırılmış vəsait Bankın xeyrinə silinir, əks halda vəsait blokdan azad edilir.

Müştəri tərəfindən mübahisələndirilən əməliyyatlar üzrə vəsaitin miqdarı qarşı tərəflə - Beynəlxalq Ödəniş Sistemlərinin şərtlərinə uyğun olaraq əməliyyat üçün ödəmə əməliyyatı təqdim edən bankla tam həll edildikdən sonra Müştərinin cari hesabına qaytarılır. Əməliyyat valyutası hesab valyutasından fərqlənərsə, qaytarılacaq məbləğ geri ödənilmə tarixində mobil əlavədə göstərilən xarici valyutanın alış-satış məzənnəsi ilə Müştərinin xeyrinə ödənilir.

10.3. Banka məxsus bankomatların işi barədə Müştəridən daxil olan şikayətlərə baxarkən Bank əməkdaşları sübut kimi bankomatda saxlanılan uçot qeydlərindən istifadə edəcəklər.

10.4. Bu Standart Şərtlər və onun çərçivəsində Müştəri ilə bağlanan müqavilələrlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktları və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.

10.5. Bu Standart Şərtlər və onun çərçivəsində Müştəri ilə bağlanan müqavilələrdən irəli gələn bütün mübahisələr danışıqlar yolu ilə həll edilir.

10.6. İstənilən mübahisənin danışıqlar yolu ilə həll edilməsi mümkün olmadıqda, həmin mübahisə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəmələrində həll olunmalıdır.

## 11. FORS-MAJOR HALLARI

11.1. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, Bank müqavilə münasibətləri üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə məsuliyyət daşımır.

11.2. Qarşısıalınmaz qüvvənin təsirinə Bank tərəfindən nəzarət edilməyən, onun səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr, o cümlədən, müharibə, ictimai iğtişaş, yanğın, zəlzələ, vulkan, daşqın, tufan, epidemiya, pandemiya, epizotiya, karantin, dövlət və hökumət orqanlarının qərarları və bu kimi digər hallar aid edilir. Hər hansı hadisə fors-major kimi, yalnız səlahiyyətli dövlət orqanlarının rəsmi qərarına əsasən tanınır.

11.3. Fors-major halları baş verdiyi gündən etibarən müqavilə üzrə icra müddətinin axımı dayandırılır və axım bu hallar aradan qalxdıqdan sonra bərpa edilir.

## 12. YEKUN MÜDDƏALAR

12.1. Standart Şərtlərdə hər hansı dəyişikliklər (valyuta mübadiləsi məzənnəsində edilən dəyişikliklər və Müştəri üçün daha əlverişli şərtlər nəzərdə tutan dəyişikliklər istisna olmaqla) haqqında məlumatı Bank, bu dəyişikliklərin tətbiq ediləcəyi tarixdən 30 (otuz) təqvim günü əvvəl Bankın rəsmi internet səhifəsində yerləşdirməklə Müştəriyə bildirir. Bu müddətdə Müştəri bu dəyişikliklərlə bağlı öz etirazını bildirmədikdə, bu dəyişikliklər Müştəri tərəfindən qəbul olunmuş hesab edilir. Müştəri, həmin müddətdə dəyişikliklərə etirazını bildirdikdə, dəyişikliklərin qüvvəyə mindiyi tarixdən Standart Şərtlər Müştəriyə münasibətdə xitam edilmiş hesab olunur. Valyuta mübadiləsi

məzənnəsində edilən dəyişikliklər və Müştəri üçün daha əlverişli şərtlər nəzərdə tutan dəyişikliklər xəbərdarlıq müddəti tətbiq olunmadan qüvvəyə minir. Bank tərəfindən Standart Şərtlərə dəyişikliklər digər kanallar vasitəsilə də (mobil əlavə, elektron poçt, sms və s.) müştəriyə bildirilə bilər.

12.2. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan Müqavilələrin hər hansı müddəasının etibarsızlığı, bu Standart Şərtlərin və onun çərçivəsində bağlanan Müqavilələrin digər müddəalarının etibarsızlığına səbəb olmur.

12.3. Bu Standart Şərtlərin və onun çərçivəsində bağlanmış Müqavilələrin qüvvədə olma müddətinin qurtarması Tərəfləri həmin müddət qurtarana qədər yol verilmiş pozuntulara görə məsuliyyətdən azad etmir.

BANKIN REKVİZİTLƏRİ:
“Unibank” Kommersiya Bankı”
Açıq Səhmdar Cəmiyyəti
Ünvan: Bakı ş, Nəsimi r-nu, R.Behbudov
küç., məhəllə 384, ev 55;
Azərbaycan Respublikası Mərkəzi Bankı
Hesablaşmalar Departamentində
AZ46NABZ01350100000000015944
saylı müxbir hesabı,
kod 505754,
SWIFT UBAZAZ22
VÖEN 1300017201